# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 sentyabr tarixli 380 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin iş yerlərinin standartları"nda dəyişiklik edilməsi haqqında**

"Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyh himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 109-VIQD nömrəli Qanununun tətbiqi və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyul tarixli 1097 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 sentyabr tarixli 380 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik

Toplusu, 2019, № 9, maddə 1534) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin iş yerlərinin standartları"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adında, 3.2-ci və 3.8-ci bəndlərinin birinci cümlələrində "Əlil arabasında" sözləri "Əlilliyi olan şəxs üçün arabada" sözləri ilə əvəz edilsin.

2. 3.3-cü, 3.4-cü və 3.6-cı bəndlərdə "əlil arabasında" sözləri "əlilliyi olan şəxs üçün arabada" sözləri ilə əvəz edilsin.

3. 3.5-ci bənd üzrə:

3.1. 3.5-ci bənddə "Əlil arabasında" sözləri "Əlilliyi olan şəxs üçün arabada" sözləri ilə əvəz edilsin;

3.2. 3.5.4-cü yarımbənddə "əmək xəsarətinin" sözləri "istehsalatda bədbəxt hadisələrin və peşə xəstəliklərinin" sözləri ilə əvəz edilsin;

3.3. 3.5.5-ci yanmbənddə "əlil arabasının" sözləri "əlilliyi olan şəxs üçün arabanın" sözləri ilə əvəz edilsin.

4. 3.12-ci bənd üzrə:

4.1. 3.12-ci bənddə "Əlil arabasında" sözləri "Əlilliyi olan şəxs üçün arabada" sözləri ilə, "əlil arabasında" sözləri "əlilliyi olan şəxs üçün arabada" sözləri ilə əvəz edilsin;

4.2. 3.12.1-ci yanmbənddə "əlil arabasının" sözləri "əlilliyi olan şəxs üçün arabanın" sözləri ilə əvəz edilsin.

5. 3.13-cü bəndin ikinci və üçüncü cümlələrində "əlil arabasının" sözləri "əlilliyi olan şəxs üçün arabanın" sözləri ilə əvəz edilsin.

6. 3.14-cü bənd üzrə:

6.1. 3.14-cü bənddə "Əlil arabasında" sözləri "Əlilliyi olan şəxs üçün arabada" sözləri ilə əvəz edilsin;

6.2. 3.14.1-ci yarımbənddə "əlil arabasının" sözləri "əlilliyi olan şəxs üçün arabanın" sözləri ilə əvəz edilsin.

7. 3.17-ci bənd üzrə:

7.1. ikinci cümlədə "əlil arabasında" sözləri "əlilliyi olan şəxs üçün arabada" sözləri ilə əvəz edilsin;

7.2. dördüncü cümlədə "əlil arabasını" sözləri "əlilliyi olan şəxs üçün arabanı" sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 23 noyabr 2020-ci il

№ 454